USAID FROM THE AMERICAN PEOPLE

IFES

ცესკო
საქართველოს საარჩევნო ადმინისტრაცია

საარჩევნო სისტემების განვითარების, რეფორმებისა და
სწავლების ცენტრი

# XATİRƏ TƏLİMATI

## SƏSVERMƏ GÜNÜ MƏNTƏQƏ SEÇKİ KOMİSSİYASI SƏDRİNİN SƏLAHİYYƏTLƏRİ

**Xatirə təlimatı səsvermə elektron vasitələrdən istifadə edərək keçirilən seçki məntəqələri üçün nəzərdə tutulub**

**Gürcüstan parlamentinə 26 oktyabr 2024-cü ilin seçkiləri**

Bu resurs İHHŞ Seçki Sistemlərinin İnkişafı, İslahatlar və Tədris Mərkəzi tərəfindən hazırlanıb.

Sənəd köməkçi resursdur və onun məqsədi səsvermə günü, komissiya sədrinə fəaliyyətini mütəşəkkil və ardıcıl şəkildə həyata keçirməsinə təşviq etməkdir.

Məntəqə seçki komissiyası sədrinin səlahiyyətləri və fəaliyyəti ilə bağlı qanunvericilik requlasiyaları ilə tam tanış olmaq məqsədi ilə Gürcüstanın Üzvi Qanunu "Gürcüstanın Seçki Məcəlləsi"-nə " Məntəqə seçki komissiyası üzvlərinin dərslik təlimatına" (MSK-nın 16 avqust 2024-cü il tarixli 35/2024 nömrəli qərarı ilə təsdiqlənib) baxın.

# Tematik mündəricat


01 Səsvermə prosesini başlamaq üçün necə hazırlaşaq 2

02 Səsvermə prosesində yaranan riskləri necə idarə edək 10

03 Seçicilərin verifikasiyasını və xüsusi elektron səs sayma aparatlarının istismarı zamanı aşkar edilmiş texniki xətaların necə idarə edək 20

04 Daşınan seçki qutusu ilə səs vermə prosesini başlamaq üçün necə hazırlaşmalı və daşınan seçki qutusunu seçki məntəqəsinə qaytararkən nəyi nəzərə almalıyıq 21

05 Səsvermədə iştirak edən seçicilərin sayını (seçicilərin fəallığı) necə və hansı dövriliklə qeyd edək 23

06 Səsvermənin nəticələrinin yekun prosesinə necə hazırlaşaq 27

07 Səsvermənin nəticələrinin yekun protokolu ilə bağlı nəyi nəzərə almalıyıq 49


Xatirə təlimatında göstərilən fəaəliyyətlərin yerinə yetirilməsi ilə paralel olaraq səsvermə binasında olmaq hüququ olan şəxslər üçün sizin həyata keçirəcəyiniz proseduru yüksək səslə elan edin.

# 01
# SƏSVERMƏ PROSESINI BAŞLAMAQ ÜÇÜN NECƏ HAZIRLAŞAQ

Seçki məntəqəsinin açılışından səsvermənin başlanmasına qədər (saat 06:45-dən 08:00-dək) keçirilməli prosedurların mütəşəkkil davam etməsi aşağıdakı əsas tədbirlərin həyata keçirilməsi ilə bağlıdır:

- ✓ məntəqənin açılması və dairə seçki komissiyasını məlumatlandırmaq;
- ✓ səsvermə binasında olmaq hüququ olan şəxslərin məntəqəyə buraxılması üçün akkreditasiya şəhadətnamələrinin yoxlanılması, qeydiyyat kitabında qeydiyyatının təmin edilməsi;
- ✓ məlumatların elanı (alınmış seçki bülletenlərinin, xüsusi çərçivə -zərflərin və bütün növ siyahılar üzrə qeydə alınmış seçicilərin sayı);
- ✓ seçicilərin verifikasiya aparatının işə salınması, ilkin hesabatların və seçicilər siyahısının çapının təmin edilməsi;
- ✓ səslərin hesablanması üçün xüsusi elektron cihazın işə salınması və sıfır çıxarışın çapının təmin edilməsi;
- ✓ məntəqə seçki komissiyasının üzvlərinə funksiyasına uyğun olaraq materialların təhvil edilməsi.

Saat 06:45-dən 08:00-a qədər keçiriləcək prosedurların həyata keçirilməsi üçün aşağıdakı ətraflı təsviri ilə rəhbərlik et.

## Saat 06:45-dən 08:00-a qədər keçiriləcək əsas tədbirlərin ətraflı təsviri

- ☐ Saat 06:45-də seçki məntəqəsini açın, telefonla dairə seçki komissiyasına seçki məntəqəsinin açılması və komissiya üzvlərinin kvorumu barədə məlumat verin.
- ☐ Komissiyanın katibinə qeydlər kitabını verin.
- ☐ Səsvermə binasında olmaq səlahiyyətinə malik şəxslərin akreditasiya şəhadətnamələrini yoxlayın (şəxsiyyət vəsiqəsi ilə güvvədədir).
- ☐ Komissiyanın katibinə tapşırın ki, səsvermə gününə qədər keçirilmiş püşkatmanın nəticələrinə dair aktda öz əksini tapmış komissiya üzvləri arasında funksiyaların bölüşdürülməsinin nəticələrini qeydlər kitabına daxil etsin
- ☐ Hamının gözü qarşısında komissiyanın xüsusi möhürünün yerləşdiyi zərfin bütövlüyünü yoxlayın və onu açın.
- ☐ Seçicilərin vahid siyahısında, xüsusi seçici siyahısında və daşınan seçki qutusu siyahısında (əgər varsa) seçicilərin sayını elan edin.
- ☐ Alınmış seçki bülletenlərinin və səsvermə üçün nəzərdə tutulmuş xüsusi çərçivə- zərflərin miqdarını elan edin.
- ☐ Seçicilərin verifikasiya aparatlarının aktivləşdirməzdən əvvəl bu aparatların xüsusi fərdi kod daxil edilmədən aktivləşdirilə biləcəyini yoxlayın.
- ☐ Seçicilərin verifikasiya aparatlarında seçicinin verifikasiya prosesini aktivləşdirin və hər bir aparatda ilkin hesabatı çap edin. Çap edilmiş ilkin hesabatları saxlanmaq üçün komissiyanın katibinə təqdim edin.

**Sxem N1** - Aparatlarda verifikasiya prosesinin açılış mərhələlərinin təsviri

{I} Düyməni basmaqla aparatlara yüklənmiş proqramı aktivləşdirir




{II} Proqram aparata yüklənməyə başlayır və bu bir neçə saniyə davam edir.



{III} Aparatlar arasında sinxronizasiya olması nişanların yaşıl rəngi ilə təsdiqlənir. Rəqəm simvolu qoşulmuş aparatların sayını göstərir

Verifikasiya prosesini açmaq üçün aparatlara fərdi kod/parol daxil edin.




{IV} “Verifikasiyanı aç” düyməsini basmaqla aparatlarda verifikasiya prosesini açırsız.

Açılışı təsdiqləmək üçün fərdi kodu/parolu təkrar daxil edin.



{V} Verifikasiya prosesi açılan kimi ilkin hesabat avtomatik olaraq aparatlardan çap olunur.




{VI} “Yaxşı” düyməsini basmaqla səsvermə prosesinin açılmasını təsdiq edin




- ☐ Seçicilərin verifikasiya aparatlarında verifikasiya prosesi aktivləşdirildikdən sonra qeydiyyatçılardan birinə ona verilmiş yoxlama aparatından seçicilərin siyahısını çap etməyi tapşırın.

**Sxem N2** - Seçicilərin siyahısının verifikasiya aparatından çap olma prosesinin təsviri

{I} Seçici siyahısının çap etmə menyusuna daxil olmaq üçün qeydiyyatçı "Menyuya qayıt" düyməsini basır.




{II} Qeydiyyatçı "Seçicilərin siyahısı" düyməsini basır.



{III} Qeydiyyatçı “Çap et” düyməsini basır və  nəticədə seçicilərin siyahısı çap olunur




- ☐ Verifikasiya aparatından çap edilmiş siyahını nümayiş protokolu ilə birlikdə nəzərə çarpan yerə asın.
- ☐ Seçki qutularının boş olduğunu yoxlayın və əmin olun. Əsas seçki qutularını və daşınan seçki qutusu/qutularını (əgər varsa) fərdi nömrəsi olan möhürlərlə möhürləyin.
- ☐ Əsas seçki qutularına xüsusi elektron səs sayma aparatlarını quraşdırınş
- ☐ Seçki qutuları möhürləndikdən sonra xüsusi açar və fərdi kod vasitəsilə xüsusi elektron səs sayma aparatlarına yüklənmiş proqramı aktivləşdirin.

**Sxem N3 -** Xüsusi səs sayma aparatlarında səsvermə prosesinin açılması və aparatlardan “sıfır çıxarışların” çapı prosesinin təsviri

{I} Aparatların gövdəsindəki yarığa xüsusi açar qoyaraq aparatlara yüklən-miş proqramı aktivləşdirin.




{II} Proqram aparatlarda yüklənməyə başlayır, bir neçə saniyə davam edir.



{III} Səsvermə prosesini açmaq üçün aparatların ekranında “Sədr” düyməsini seçin.




{IV} Aparatlara fərdi kodu daxil edin.



{V} Aparatların ekranında “səsvermənin açılışı” seçin, açılışı təsdiqləmək üçün fərdi kodu təkrar daxil edin.




{VI} Səsvermə açılan kimi aparatlardan avtomatik olaraq “sıfır çıxarış” çap olunur, buda onu təsdiq edir ki, aparat vasitəsilə heç bir seçici səs vermiyib



{VII} Səsverməyə başla” düyməsini basmaqla səsvermə prosesinin açılışını təsdiq edin.




- ☐ Xüsusi səs hesablama aparatlarından çap edilmiş “sıfır çıxarışları” komissiyanın katibi ilə birlikdə imzalamaqla təsdiq edin və saxlanmaq üçün komissiya katibinə təhvil verin.
- ☐ Boş qutuların möhürlənməsi faktını və çıxarışda verilən məlumatı həmin anda aparat vasitəsilə heç bir seçicinin səs vermədiyini qeydlər kitabçasında komissiyanın katibi ilə birlikdə imzalamaqla təsdiqləyin.
- ☐ Xüsusi elektron səs hesablama aparatının xüsusi ştrixkod və fərdi QR-kodu olmayan seçki bülleteni qəbul etmədiyini yoxlamaq üçün xüsusi ştrixkod və fərdi QR-kodu olmayan seçki bülleteni formatını qeyd olunan aparatlara yerləşdirin.
- ☐ Hər bir qeydiyyatçıya verin:
  - ☐ 50 seçki bülleteni (qeydiyyatçı seçki bülletenlərinin sayını saydıqdan sonra onunla birlikdə təhvil-təslim aktını imzalamayın);
  - ☐ seçki bülleteni doldurulması üçün xüsusi marker;
  - ☐ xüsusi çərçivə zərfləri;
  - ☐ işarələnmə mayesi;
  - ☐ yazı qələmi;
  - ☐ verifikasiya aparatlarından çap olunan seçicilərin verifikasiyasını

təsdiq edən qəbzlərinin yerləşdirilməsi üçün nəzərdə tutulmuş qeyri-şəffaf qutu (qutunu təhvil verməzdən əvvəl qeyd olunan qutunun üzərinə fərdi nömrəli möhürlə möhürləyin);

- ☐ qeydiyyatçılardan birinin masasına zəif görən seçicilər üçün böyüdücü linza, habelə görmə qabiliyyətindən məhrum olan seçicilər üçün xüsusi çərçivə (əgər varsa) qoyun.

- ☐ Axının tənzimləyicisi komissiya üzvünə işarələnməni yoxlamaq üçün ultrabənövşəyi lampa verin.
- ☐ Seçki qutusuna və xüsusi elektron səs sayma aparatına nəzarətçısı məntəqə seçki komissiyasının sədr müavininə bildirin ki, əsas seçki qutusunun yanında yer alsın. Zəruri hallarda, funksiyanı yerinə yetirmək üçün əlavə olaraq komissiyanın digər üzvünə həvalə edin.
- ☐ Səsvermə prosesinə başlamazdan əvvəl planşetdə yüklənmiş MSK-nın tətbiqi aktivləşdirin.

Planşetə yüklənmiş MSK tətbiqinin aktivasiya prosesinin təsvirinə baxın səh. 17, sxem N4.

**Sxem N4** - planşetə yüklənmiş MSK-nin tətbiqinin aktivləşdirilməsi prosesinin təsviri

{I} İşarəyə basmaqla planşetdə yüklənmiş MSK-nin tətbiqini aktivləşdirin.



{II} Avtorizasiyanı keçin. Bunun üçün müvafiq xanalara kartın nömrəsini, seçki məntəqəsinin nömrəsini daxil edin və “Kod göndər” düyməsini basın







{III}

Qısa mətn bildirişi ilə alınan kodu “Birdəfəlik kod” sahəsinə daxil edin və “Giriş” düyməsini basın.

☐ Seçki məntəqəsində səsvermə prosesi saat 08:00-dan başlayır. Birinci seçici tərəfindən qeydiyyata alındıqdan sonra planşet vasitəsilə səsvermə prosesinin başlanması barədə MSK-ya məlumat verin.

Planşetə yüklənmiş MSK-nin tətbiqi vasitəsilə səsvermənin başlanması haqqında məlumatın göndərilmə prosesinin təsvirinə baxın səh. 19, sxem N5.

**Sxem N5** - planşetdə yüklənmiş MSK tətbiqi vasitəsilə səsvermənin başlanması haqqında məlumatın göndərilməsi prosesinin təsviri




{I}

MSK-ya prosesin başlanması barədə məlumat vermək üçün açılan kontekst menyusuna basın



{II}

Proqram menyusunda “Fəaliyyət” düyməsini basın




{III}

“Açmaq” düyməsini seçin. Düyməni seçdikdən sonra məlumat MSK-ya göndəriləcək.



## 02
# SƏSVERMƏ PROSESİNDƏ YARANAN RİSKLƏRİ NECƏ İDARƏ EDƏK

- ✓ İşarələnmənin yoxlanılması üçün xüsusi alət seçicidə artıq işarələnmənin olduğunu aşkar edərsə, ona səsvermədə iştirak etmək qadağan edilir. Axının tənzimləyicisi seçicinin səsvermə otağına daxil olmaqdan imtina edilməsini izah edir və seçici haqqında məlumatı qeydlər kitabına daxil edilməsi üçün komissiyanın katibinə bildirir.
- ✓ Seçici qeydiyyatçıya müddəti bitmiş şəxsiyyət vəsiqəsini və ya Gürcüstan vətəndaşının etibarsız hesab edilən qeyri-elektron qerşəxsiyyət vəsiqəsini təqdim etdikdə (27 iyul 2011-ci il tarixinədək verilmiş qeyri-elektron şəxsiyyət vəsiqəsi etibarsızdır) qeydiyyatçı seçiciyə səsvermədə iştirakdan imtinanın səbəbini izah edir və onun şəxsiyyəti təsdiq edən etibarlı sənəd təqdim etdiyi halda səsvermədə iştirakına icazə veriləcəyini bildirir.
- ✓ Seçici qeydiyatçıya Gürcüstan vətəndaşının pasportunu və ya Gürcüstan vətəndaşının qeyri-elektron şəxsiyyət vəsiqəsini təqdim edərsə, qeydiyyatçı seçicinin məlumatlarını aparatda yoxlamasını əli ilə həyata keçirir.
- ✓ Əgər verifikasiya aparatı tərəfindən seçici məlumatlarının uyğunluğu yoxlanılarkən, təqdim edilmiş sənəddəki seçicinin qeydiyyatı məlumatlarının seçicinin verifikasiya aparatına yüklənmiş seçicilərin siyahısındakı məlumatlara uyğundursa, lakin qeydiyyatçı seçicinin üzünü və təqdim edilmiş sənəddəki fotoşəklin bir-biri ilə uyğun gəlmədiyi aşkar edərsə, o sizə bildirməlidir:
    - Əgər uyğunsuzluğu təsdiq etsəz, komissiyanın katibi qeydlər kitabında qeydlər aparır və orada uyğunsuzluq faktını (seçicinin adı və soyadını, onun seçicilər siyahısındakı sıra nömrəsini) qeyd edir. Qeydi komissiyanın katibi ilə birlikdə imzalamaqla təsdiq edirsiz.
    - Əgər uyğunsuzluğu təsdiq etməsəz, qeydiyyatçı öz xüsusi rəyini qeydlər kitabına daxil etmək hüququna malikdir. Komissiyanın katibi qeydlər kitabında müvafiq qeyd (seçicinin adı və soyadı, seçici siyahısında onun seriya nömrəsi göstərilməklə) etməlidir. Bu qeyd qeydiyyatçı və komissiya katibinin imzaları ilə təsdiqlənməlidir.

Göstərilən hallarda komissiyanın katibi seçicinin təqdim etdiyi, onun imzası ilə təsdiq edilmiş şəxsiyyətini təsdiq edən sənədin surətini qeydlər kitabına əlavə etməlidir.

Prosedurları tamamladıqdan sonra seçicinin səsvermədə iştirakına icazə verin.

✓ İşarələnmə prosedurundan keçməkdən imtina edildikdə, seçicinin səsvermədə iştirakına qadağa ediləcək. Qeydiyyatçı ona seçki məntəqəsini tərk etməyi izah edir.

✓ Seçicinin verifikasiya qəbzi verifikasiya aparatından çap edilmədikdə və ya texniki xəta ilə çap olunduqda seçici verifikasiya qəbzinin əvəzinə seçicinin verifikasiyasını təsdiq edən aktı imzalayır, onun forması komissiyanın katibi doldurur. Qeydiyyatçı seçicinin imzaladığı aktı verifikasiyanı təsdiq edən qəbzləri üçün nəzərdə tutulmuş qutuya qoyur. Komissiyanın katibi müvafiq seçicinin şəxsiyyətini təsdiq edən sənədin surətini qeydlər kitabına əlavə edir.

✓ Verifikasiya aparatı səsvermə binasında səs vermək üçün gələn seçicinin daşınan seçki qutularının siyahısına daxil edildiyini müəyyən etdikdə aparatın ekranında müvafiq məlumat göstərilir, eyni zamanda aparat səs siqnalı verir. Seçicinin seçki məntəqəsində səs verməsi qadağan ediləcək. Qeydiyyatçı seçiciyə izahat edir ki, müraciətə uyğun olaraq seçici üçün daşınan seçki qutusu ilə səsvermə xidməti göstərilir.

✓ Verifikasiya aparatı səsvermə binasında səs vermək üçün gələn seçicinin başqa seçki məntəqəsi üzrə xüsusi siyahıya daxil edildiyini aşkar etdikdə, aparatın ekranında müvafiq məlumat əks etdirilir, eyni zamanda aparat səs siqnalı verir. Seçicinin seçki məntəqəsində səs verməsi qadağan ediləcək. Qeydiyyatçı seçiciyə izah edir ki, səsvermədə iştirak etmək üçün o, müvafiq seçki məntəqəsinə getməlidir. Qeydiyyatçı verifikasiya aparatının ekranında göstərilən məlumat əsasında seçiciyə məntəqənin nömrəsini və ünvanını təqdim edir.

✓ Verifikasiya aparatı seçki məntəqəsində səs vermək üçün gələn seçicinin artıq bu məntəqədə verifikasiya olunduğu müəyyən etdikdə aparatın ekranında müvafiq məlumat göstərilir, eyni zamanda aparat səs siqnalı verir. Seçicinin seçki məntəqəsində səs verməsi qadağan ediləcək. Qeydiyyatçı seçiciyə seçki məntəqəsini tərk etməyi izah edir.

✓ Verifikasiya aparatı verifikasiya aparatında yüklənmiş siyahıda seçici haqqında məlumatları tapılmadığını aşkar edərsə, mümkün qədər, seçiciyə qeydiyyatda olduğu məntəqə haqqında məlumat tapmağa kömək edin.

**Sxem N6** - planşetə yüklənmiş MSK-nin tətbiqi vasitəsilə seçicinin məlumatlarının axtarışı prosesinin təsviri.




{I}

Seçicilər siyahısında şəxsi axtarmaq üçün “Şəxsi nömrə” sahəsinə seçicinin şəxsi nömrəsini daxil edin və “Yükləmə” düyməsini seçin.




{II}

Seçicinin vahid siyahıda qeydə alınması təsdiqləndiyi halda ekranda seçicinin qeydiyyat məlumatları, o cümlədən seçki məntəqəsinin nömrəsi göstərilir.

- ✓ Seçki bülletenini müstəqil doldura bilməyən seçici aşağıdakılar istisna olmaqla, seçki məntəqəsində olan istənilən şəxsi gizli səsvermə kabinəsində ona kömək etmək üçün dəvət etmək hüququna malikdir:

  a) seçki komissiyasının üzvü;

  b) namizədin;

  c) seçki subyektinin nümayəndəsi;

  d) müşahidəçi;

  e) mətbuat və digər kütləvi informasiya vasitələrinin nümayəndəsi.

- ✓ Seçicinin seçki bülleteni korlandıqda, qeydiyyatçıya tapşırın ki, korlanmış seçki bülleteni yenisi ilə əvəz etsin. Seçicinin iştirakı ilə korlanmış seçki bülleteni seçki subyektlərini görmək mümkün olmayacaq şəkildə bükün, bükülmüş seçki bülleteni metal bərkidici ilə bərkidin, küncünü kəsin, "korlanmış" yazın və imzalayın. Korlanmış seçki bülletenini ayrıca saxlayın.

- ✓ Xüsusi elektron səs sayma aparatı seçki bülletenini geri qaytararsa, onu yenidən xüsusi elektron səs sayma aparatına yerləşdirmək mümkündür. Seçki bülleteni yenidən geri qaytarılarsa, korlanmış hesab olunacaq. Seçicinin iştirakı ilə korlanmış seçki bülletenini elə qatlayın ki, seçki subyektlərini görmək mümkün olmasın, bükülmüş seçki bülleteni metal bağlayıcı ilə bağlayın, küncünü kəsin, "korlanmış" yazın və imzalayın. Korlanmış seçki bülletenini ayrıca saxlayın. Qeydiyyatçıya tapşırın ki, seçiciyə korlanmış seçki bülleteni yenisi ilə əvəz etsin.

# 03
# SEÇİCİLƏRİN VERİFİKASİYASINI VƏ XÜSUSİ ELEKTRON SƏS SAYMA APARATLARININ İSTİSMARI ZAMANI AŞKAR EDİLMİŞ TEXNİKİ XƏTALARIN NECƏ İDARƏ EDƏK

Səsvermə prosesinin elektron vasitələrdən istifadə etmədən davam etdirilməsi barədə qərar qəbul edilməzdən əvvəl nəzərə alınmalı məsələlər:

- ✓ Səsvermə prosesinin gedişatı zamanı seçicilərin verifikasiyası və xüsusi elektron səs sayma aparatlarda texniki xəta aşkar edildikdə, səsvermə prosesini müvəqqəti dayandırılması haqqında qərar qəbul edirsiz və bu barədə dərhal dairə seçki komissiyasına məlumat verməyə borclusuz.
- ✓ Texniki xəta aradan qaldırılan kimi səsvermə aparatın/aparatların vasitəsilə davam etdirilir
- ✓ Səsvermə prosesi seçicilərin verifikasiyası və səslərin hesablanması üçün birdən çox xüsusi elektron aparatdan istifadə edilməklə aparılıbsa və texniki xətaya görə yalnız bir hissəsi fəaliyyətini dayandırıbsa, bu halda səsvermə prosesi qalan fəaliyyətdə olan seçicilərin verifikasiyasından və xüsusi elektron səs sayma aparatı/aparatlarından istifadə etməklə davam edir.
- ✓ Seçicilərin verifikasiyası/xüsusi electron səs sayma aparatları ilə səsvermənin davam etdirilməsi mümkün olmadıqda, məntəqə seçki komissiyasının katibi müvafiq aparatdan/aparatlardan istifadə etmədən səsvermənin davam etdirilməsi haqqında akt tərtib edir (komissiyanın bütün iştirak edən üzvü imza atır) və qeydlər kitabında müvafiq qeyd edir.
- ✓ Səsvermə prosesi seçiciləri verifikasiya aparatından istifadə edilmədən davam etdirildikdə, məntəqə seçki komissiyası üzvlərinin təlimatının N2 əlavəsini, səh. 74-82-ni rəhbər tutun.
- ✓ Səsvermə prosesi xüsusi elektron səs sayma aparatından istifadə edilmədən davam etdirildikdə, məntəqə seçki komissiyası üzvlərinin təlimatının N2 əlavəsini, səh. 74-75; 83-84-ü rəhbər tutun.

## 04
## DAŞINAN SEÇKİ QUTUSU İLƏ SƏS VERMƏ PROSESİNİ BAŞLAMAQ ÜÇÜN NECƏ HAZIRLAŞMALI VƏ DAŞINAN SEÇKİ QUTUSUNU SEÇKİ MƏNTƏQƏSİNƏ QAYTARARKƏN NƏYİ NƏZƏRƏ ALMALIYIQ

- ☐ Daşınan seçki qutusu ilə səsvermə saat 09:00-da başlayır. Daşınan seçki qutusu vasitəsi ilə səsverməyi keçirməyə cavabdeh olan komissiya üzvlərinə/xüsusi qruplara təhvil verin:
  - ☐ möhürlənmiş daşınan seçki qutusunu;
  - ☐ daşınan seçki qutusu siyahısını komissiya üçün nəzərdə tutulmuş versiyasını;
  - ☐ lazımı sayda seçki bülletenləri;
  - ☐ seçki bülleteninin doldurulması üçün xüsusi markerlər;
  - ☐ lazımı sayda xüsusi çərçivə zərfləri;
  - ☐ metal bərkidicilər (seçici seçki bülleteni xüsusi çərçivə zərfinə qoyduqdan sonra çərçivə zərfi metal kliplə bərkidilir və daşınan seçki qutusuna qoyulur);
  - ☐ metal bağlayıcı (seçki bülleteni korlandıqda səsvermənin gizliliyini təmin etmək üçün istifadə olunur);
  - ☐ işarələnməni yoxlamaq üçün ultrabənövşəyi lampa;
  - ☐ işarələnmə mayesi;
  - ☐ yazı qələmi (daşınan seçki qutusunun siyahısında seçicinin imzasının qeyd edilməsi məqsədi üçün);
  - ☐ daşınan seçki qutusunun yarığının möhürü.
- ☐ Daşınan seçki qutusu ilə səsvermə zamanı avtomobil istifadə edildikdə, səsvermə binasında olmaq hüququ olan şəxslər arasından püşkatma ilə müəyyən edilmiş 2 nəzarətçi (mövcud olduğu təqdirdə) üçün avtomobildə yer ayırın.

- ☐ Daşınan seçki qutusu vasitəsi ilə səsvermə saat 19:00-dan gec olmayaraq başa çatır, daşınan seçki qutusu saat 20:00-dan gec olmayaraq seçki məntəqəsinə qaytarılmalıdır.
- ☐ Daşınan seçki qutusu səsvermə binasına qaytarıldıqdan sonra komissiyanın katibinə daşınan seçki qutusunun siyahısında imzaların, istifadə olunmamış və/və ya korlanmış seçki bülletenlərinin sayının düzgünlüyünü yoxlamasını bildirin. Qeyri-dəqiqlik aşkar edildikdə, daşınan qutunun müşayiət edən komissiya üzvləri səbəbi göstərilməklə izahat yazmalıdırlar. Səsvermədə/seçkilərdə iştirak edən seçicilərin sayının müəyyən edilməsi və səsvermənin nəticələrinin yekun protokolunun tərtib edilməsi məqsədilə izahatda göstərilən məlumatlar nəzərə alınır.
- ☐ Seçki məntəqəsində birdən çox daşınan seçki qutusundan istifadə edildikdə, xüsusi qrupun üzvlərinə daşınan seçki qutusunda olan bülletenlərin xüsusi elektron səs sayma aparatına qoyulması proseduru başa çatana qədər seçki məntəqəsində qalmaları barədə göstəriş verin.

## 05
## SƏSVERMƏDƏ/SEÇKİLƏRDƏ İŞTİRAK EDƏN SEÇİCİLƏRİN SAYINI (SEÇİCİLƏRİN FƏALLIĞI) NECƏ VƏ HANSI DÖVRİLİKLƏ QEYD EDƏK

- ☐ Səsvermədə/seçkilərdə iştirak edən seçicilərin sayını (seçici fəallığını) müəyyən etmək üçün seçicilərin verifikasiya aparatından saat 10:00, 12:00, 15:00, 17:00-da seçicilərin fəallığını əks etdirən qəbz/hesabat çap etmək üçün qeydiyyatçılardan birinə tapşırın.
- ☐ Müvafiq dövrlər üçün (saat 10:00, 12:00, 15:00, 17:00) çap edilmiş qəbzdə/hesabatda qeyd olunan səsvermədə/seçkidə iştirak edən seçicilərin sayına daşınan seçki qutusuna daxil edilmiş (əgər varsa) seçicilərin imzalarının cəmini əlavə edin və planşetlə, MSK-ya təqdim edilən məlumatlar göndərilir.

  Səsvermədə/seçkilərdə iştirak edən seçicilərin sayı (fəaliyyəti) haqqında məlumatların MSK-ya göndərilməsi prosesinin təsvirinə səh.32, sxem N7-də baxın.

**Sxem N7** - səsvermədə/seçkilərdə iştirak edən seçicilərin sayı (fəaliyyəti) haqqında məlumatın MSK-na göndərilmə prosesinin təsviri.




{I}

Açılan kontekst menyusuna basın




{II}

Proqramın menyusunda “Fəaliyyət” düyməsini basın.




{III}

Aktiv sahədə müvafiq vaxt göstəricisini seçin.







{IV}

Qrafada müvafiq dövr üçün müəyyən edilmiş səsvermədə/seçkilərdə iştirak edən seçicilərin sayını daxil edin və “Göndər” düyməsini seçin.

{V}

Göndərilən məlumatlar müvafiq dövr üçün fəaliyyət qrafasında əks etdirilir






# 06
# SƏSVERMƏNİN NƏTİCƏLƏRİNİN YEKUN PROSESİNƏ NECƏ HAZIRLAŞAQ

Seçki məntəqəsinin bağlanmasından səsvermənin nəticələrinin yekun protokolunun hazırlanmasına qədər həyata keçiriləcək prosedurların mütəşəkkil şəkildə aparılması aşağıdakı əsas fəaliyyətlərin həyata keçirilməsi ilə bağlıdır:

- ✓ seçki məntəqəsinin bağlanması;
- ✓ verifikasiya aparatlarında verifikasiya prosesinin başa çatması;
- ✓ daşınan seçki qutusunun açılması və xüsusi elektron səs sayma aparatı vasitəsilə bülletenlərin əsas seçki qutusuna qoyulması;
- ✓ xüsusi elektron səs hesablama aparatından ilkin nəticələrin toplu çıxarışının çapı və ictimailəşdirilməsi;
- ✓ səslərin hesablanması proseduru üçün seçki məntəqəsinin təşkili;
- ✓ püşkatma ilə sayıcıların müəyyən edilməsi;
- ✓ müşahidəçilər tərəfindən müəyyən edilmiş nəzarətçilərin, seçki subyektlərinin nümayəndələrinin səslərin hesablanması prosesinə cəlb edilməsinin təmin edilməsi;
- ✓ əsas seçki qutuları açılmazdan əvvəl müvafiq seçki sənədlərinin sayıcılar tərəfindən möhürlənməsi;
- ✓ əsas seçki qutularının açılması;
- ✓ sayıcılar tərəfindən seçki bülletenlərinin çeşidlənməsi, sayılması və möhürlənməsi.

Seçki məntəqəsinin bağlanmasından səsvermənin nəticələrinin yekun protokolunun tərtib edilməsinə qədər həyata keçiriləcək prosedurlar üçün aşağıdakı ətraflı təsvir ilə rəhbərlik et.

## Seçki məntəqəsinin bağlanmasından səsvermənin nəticələrinin yekun protokolunun tərtib edilməsinə qədər müddətdə həyata keçiriləcək əsas işlərin ətraflı

- ☐ Saat 20:00-da səsvermə proseduru başa çatır və seçki məntəqəsi bağlanır. Bu zaman növbədə duran seçicilər səs verə bilər. Komissiya üzvlərindən birinə növbədə duran seçicilərin adlarını və soyadlarını qeydə almasını və sizə bildirməsini tapşırın. Sonuncu seçici səsini verən kimi əsas qutunun yarığını möhürləyin və səsvermə başa çatmış elan edin.
- ☐ Qeydiyyatçılara seçicilərin verifikasiyasını təsdiq edən qəbzləri yerləşdirmək üçün qeyri-şəffaf qutuların yarığlarını möhürləməyi tapşırın.
- ☐ Komissiyanın katibinə səslərin hesablanması zamanı səsvermə binasında olan şəxslərin məlumatlarını qeydlər kitabının 26 və 27-ci səhifələrinə daxil etməsini bildirin.

  Səsvermə binası bağlandıqdan sonra səsvermə binasında olmaq hüququ olan şəxslərin istənilən vaxt səsvermə binasına daxil olmaq və çıxmaq hüququ vardır.
- ☐ Səsvermə prosesi başa çatdıqdan sonra qeydiyyatçılardan birinə seçicilərin verifikasiya aparatından seçicilərin ümumi sayını göstərən yekun qəbzi/hesabatı çap etməyi tapşırın.
- ☐ Çap olunmuş yekun hesabatı saxlanmaq üçün komissiya katibinə təqdim edin.
- ☐ Planşet ilə səsvermədə/seçkilərdə iştirak edən seçicilərin yekun sayı, o cümlədən gender haqqında məlumatların MSK-ya göndərilməsini təmin edin.

**Sxem N8 -** səsvermədə/seçkilərdə iştirak edən seçicilərin yekun sayı (fəaliyyəti) haqqında məlumatın MSK-ya göndərilməsi prosesinin təsviri.




{I}

Açılan kontekst menyusuna basın.






{II}

Proqramın menyusunda "Fəaliyyət" düyməsini seçin.




{III}

Müvafiq vaxtın göstəricisi aktiv sahəni seçin.




{IV}

Səsvermədə/seçkidə iştirak edən seçicilərin ümumi sayını qrafaya daxil edin və “Göndər” düyməsini seçin.

Eyni şəkildə gender məlumatlarını daxil edin və göndərin.




{V}

Göndərilən məlumatlar müvafiq qrafiklərdə əks olunur.

☐ Verifikasiya aparatlarında verifikasiya prosesini tamamlayın.

**Sxem N9** - Aparatlarda verifikasiya prosesinin başa çatma mərhələlərinin təsviri.

{I} “Menyuya qayıt” düyməsini seçin.



{II} Menyuda“Verifikasiyanı bağla” düyməsini seç.




{III} “Verifikasiyanı bağla” düyməsini təkrar seç.



{IV} Verifikasiya prosesini bağlamaq üçün fərdi kodu daxil edin.




{V} Verifikasiya prosesi bağlandıqda, yekun hesabatlar avtomatik olaraq aparatlardan çap olunur.



{VI} “Cihazı söndür” düyməsini seçin və aparatları söndürün.




- ☐ Daşınan seçki qutusunun (əgər varsa) möhürlərin bütövlüyünü yoxlayın.

  Daşınan seçki qutusunun möhürünün bütövlüyünün pozulduğu aşkar edildikdə, lakin komissiya bunun qanunvericiliyin tələblərinin pozulmasına səbəb olmadığını hesab etdikdə, komissiyanın sərəncamına əsasən səsvermənin nəticələrinin yekunlaşdırılması proseduru davam etdirilir (qeyd olunan faktla bağlı dərhal dairə seçki komissiyasına məlumat verilin). Əks halda daşınan seçki qutusu möhürlənərək komissiyanın sərəncamı ilə birlikdə dərhal Dairə Seçki Komissiyasına təhvil verilir.

- ☐ Daşınan seçki qutusunun möhürünün bütövlüyünün pozulması aşkar edilmədikdə, daşınan seçki qutusunda olan seçki bülletenlərini xüsusi elektron səs sayma aparatı vasitəsilə əsas seçki qutusuna/qutularına elə yerləşdirin ki, seçicinin etdiyi seçimi görmək mümkün olmasın.

Əgər:

- ✓ Daşınan seçki qutusundan çıxarılan xüsusi çərçivə-zərfdə müəyyən edilmiş saydan çox seçki bülletenləri olsa, belə seçki bülletenləri ayrıca yerləşdiriləcək, batil sayılmasının səbəbi “daha çox bülleten” yazılacaq və əsas seçki qutusunda aşkar olunmuş batil seçki bülletenlərin sayına əlavə olunacaq.

- ✓ Daşınan seçki qutusundan çıxarılan seçki bülleteni xüsusi elektron səs sayma aparatı geri qaytarsa, belə seçki bülleteni ayrı-ayrılıqda elə yerləşdiriləcək ki, seçicinin seçdiyi seçimi görmək mümkün olmasın və sonra saymaq üçün əsas seçki qutularından çıxarılan seçki bülletenləri ilə qarışdırılacaq.

  Göstərilən hallar aşkar edildikdə, komissiyanın katibi faktı göstərən akt tərtib tərtib etməsini bildirin, həmin akta sizlə birlikdə komissiyanın bütün üzvləri və xüsusi qrupun (əgər varsa) üzvləri imzalayır.

- ✓ Daşınan seçki qutusunda başqa seçki məntəqəsi üçün nəzərdə tutulmuş və ya müəyyən edilməmiş nümunədə seçki bülleteni aşkar edilərsə, belə seçki bülletenini ayrıca yerləşdirir. Digər məntəqə üçün nəzərdə tutulmuş seçki bülletenləri batil hesab edilir, ayrıca bağlamaya qablaşdırılır, onların sayı səsvermənin nəticələrinin yekun protokolunda göstərilmir və yalnız qeydlər kitabında qeyd olunur.

- ☐ Daşınan seçki qutusunda olan seçki bülletenlərini əsas seçki qutusuna yerləşdirilməsi prosedurunu başa vurduqdan sonra xüsusi elektron səs sayma aparatlarında səsvermə prosesini bağlayın.

Aparatların birindən ilkin nəticələr haqqında konsolidasiya səsvermnin ilkin nəticələrini və məlumatı çap edin, MSK-ya çatdırmaq üçün, xarici yaddaş kartına köçürün.

**Sxem N10 -** Aparatlarda verifikasiya prosesinin başa çatma mərhələlərinin təsviri.

{I} Aparatların gövdəsindəki olan yarığa xüsusi açar yerləşdirərək proqramın idarəetmə panelinə daxil olun.




{II} Aparatlarda proqram yüklənməyə başlayır, bir neçə saniyə davam edir.



{III} Səsvermə prosesini bağlamaq üçün aparatların ekranında “Sədr” düyməsini seçin.




{IV} Aparatlara fərdi kodu daxil edin.



{V} Aparatların ekranında “Səsvermə prosesini bağlamaq” seçin  və bağl-anmanı təsdiqləmək üçün fərdi kodu təkrarla daxil edin.




{VI} Bağlandı” düyməsini seçin və  səsvermə prosesinin bağlanmasını təsdiq edin.



{VII} Aparatlar arasında məlumatların mübadiləsi (məlumatların toplanması - sinxronizasiya üçün) üçün “Nəticələrin sinxronizasiyası” düyməsini seçin.




{VIII} Aparatlarda fərdi kodu daxil edin.



{IX} Aparatlar sinxronizasiya prosesini (məlumat mübadiləsi) avtomatik rejimdə həyata keçirirlər.




{X} Sinxronizasiya prosesi başa çatdıqdan sonra nəticələrin konsolidasiyasını həyata keçirin.



{XI} Aparatın ekranında neçə aparatın məlumatı konsolidasiya edildiyi barədə bildiriş görünəcək. Sonra iki nüsxədə avtomatik rejimdə səsvermənin ilkin nəticələri haqqında çıxarış çap olunur.




{XII} Konsolidasi hesabatın çap olunduğu səslərin hesablanması aparatın müvafiq bölməsində ilkin nəticələr haqqında məlumatın avtomatik yazıldığı xarici yaddaş kartını qoşun.



{XIII} İlkin nəticələri xarici yaddaş kartına köçürdükdən sonra “Sistemi söndür” düyməsini seç.




{XIV} “Bəli” düyməsini seçin və aparatları seçin.




- ☐ Seçkilərin ilkin nəticələrinin çıxarışı xüsusi elektron sayma aparatından çap olunmadıqda və ya texniki xəta il çap olunarsa, bu halda səslərin hesablanması və səsvermənin nəticələrinin yekun protokolunun tərtibi prosedurları fasiləsiz davam etdirilir.
- ☐ İlkin nəticələr haqqında konsolidasiya çıxarışını katiblə birlikdə imzalayın, komissiyanın möhürü ilə təsdiq edin. İlkin nəticələr haqqında

konsolidasiya çıxarışının bir nüsxəsini saxlanmaq üçün komissiyanın katibinə verin, ikinci nüsxəsini isə səsvermə binasında ictimaiyyəti məlumatlandırmaaq üçün asın.

- İlkin nəticələr haqqında konsolidasiya çıxarış ilə birlikdə məntəqə seçki komissiyası tərəfindən tərtib edilmiş aktın (əgər varsa) təsdiq edilmiş surətini nəzərə çarpan yerə asın, hansı ki, daşınan seçki qutusundan seçki bülletenlərini əsas seçki qutusuna yerləşdirilməsi prosesində aşkar edilmiş hallarla əlaqədardır (aparat daşınan seçki qutusundan çıxarılmış seçki bülleteni geri qaytardı; Daşınan seçki qutusundan çıxarılan xüsusi çərçivə zərfində müəyyən edilmiş saydan çox seçki bülleteni aşkar edilmişdir).
- Planşet vasitəsilə MSK-ya ilkin nəticələr haqqında konsolidasiya çıxarışında göstərilən məlumatların çatdırılmasını təmin edin.

Səsvermənin nəticələrinə konsolidasiya çıxarışında olan məlumatların MSK-ya göndərilməsi prosesinin təsvirinə səh. 53, N11 sxeminə baxın.

**Sxem N11** -əsvermənin ilkin nəticələrinin konsolidasiya çıxarışında məlumatların MSK-ya göndərilməsi prosesinin təsviri.

{I} İşarəyə basmaqla planşetdə yüklənmiş MSK-nin tətbiqini aktivləşdirin.



{II} Proqram planşetdə yüklənməyə başlayır, bir neçə saniyə çəkir.




{III} Xüsusi fərdi kodu daxil edin.



{IV} “Göndərməyə başla” düyməsini seçin.




{V} Yaddaş kartını planşetə qoşun və “Göndər” düyməsini seçin.



{VI}  İlkin konsolidasiya edilmiş nəticələrin göndərilmə prosesi bir neçə saniyə çəkir.




{VII}  “Bitir” düyməsini seçin, bundan sonra nəticələrin planşetdə göndərilmə prosesi tamamlanır.



Əgər seçki məntəqəsində:

✓ Planşetdə texniki xəta aşkar edildikdə (ilkin nəticələrin göndərilmə tətbiqində və ya digər problemlə qarşılaşdı) və xətanı düzəltmək mümkün olmadıqda, belə halda ilkin nəticələrin konsolidasiya çıxarışında göstərilən məlumatlar haqqında məlumatı sizin tərəfinizdən müəyyən edilən şəxsin mövcud olduğu başqa texniki vasitə ilə (məsələn, smartfon) dairə seçki komissiyası tərəfindən əvvəlcədən müəyyən edilmiş şəxslə (dairə seçki komissiyasının rəhbər şəxslərinə, müqavilə əsasında işləyən şəxs) və ya MSK-nın müvafiq səlahiyyətli şəxsinə (seçki proseslərinin idarə edilməsi şöbəsinin əməkdaşı) göndərin.

✓ Seçki məntəqəsində kəsilməz mobil rabitə və internet bağlantısı olmadıqda, bu halda ilkin nəticələrinin konsolidasiya çıxarışında göstərilən göstəricilər haqqında məlumatı səsvermə binasının xarici perimetrindən MSK-ya göndərilə bilər.

☐ Səslərin sayılması proseduruna başlamaq üçün dörd sayıcı seçmək üçün püşkatma keçirin.

☐ Seçki məntəqəsində olan seçki subyektlərinin nümayəndələrindən 2 nəfərdən çox olmayan nümayəndənin müəyyən edilməsi üçün püşkatma keçirilsin, onlar sayıcılarla birlikdə həqiqi və/və ya batil seçki bülletenlərin hesablanması prosesində iştirak edirlər.

Seçki subyektlərinin nümayəndələri, onlar tərəfindən təyin edilmiş komissiyanın üzvləri püşkatma yolu ilə müəyyən edilmiş sayaçılardırlarsa püşkatmada iştirak etmirlər.

☐ Əgər müşahidəçilər öz tərkiblərindən qarşılıqlı razlıq ilə seçki bülletenlərin hesablama prosesinin nəzarətçisi şəxsi seçə bilmədikdə müşahidəçilər arasında 2 nəzarətçi seçmək üçün püşkatma keçirin.

☐ Səslərin hesablanması üçün məntəqəni təşkil edin. Sayıcıların masasına aparın:

- ☐ daşınan seçki qutularının siyahısını (əgər varsa);
- ☐ qeydiyyatçılarda olan istifadə olunmamış seçki bülletenlərini;
- ☐ korlanmış seçki bülletenlərini:
- ☐ əsas seçki qutularını.

☐ Komissiyanın katibinə bildirin ayrı-ayrı paketlərə yerləşdirsin:

- ☐ daşınan seçki qutusunun siyahısını (əgər varsa);
- ☐ korlanmış seçki bülletenlərini;

- qeydiyyatçılarda mövcud olan istifadə olunmamış seçki bülletenlərini (paketə yerləşdirməzdən əvvəl komissiyanın katibi qeyd olunan seçki bülletenlərinin küncünü kəsir)

- Möhürlənmiş sənədlərin möhürlənmə zolağında sayıcılar ilə birlikdə imzalayın.

- Əsas seçki qutularının möhürlərinin bütövlüyünü yoxlayın. Hər şey qaydasındadırsa, əsas seçki qutularını açın.

  Əgər seçki qutularının möhürünün bütövlüyünün pozulduğu aşkar edildikdə, lakin komissiya bunun qanunun tələblərinin pozulmasına səbəb olmadığını hesab etdikdə, komissiyanın sərəncamına əsasən səsvermənin nəticələrinin yekunlaşdırılması proseduru davam etdirilir (qeyd olunan faktla bağlı dərhal dairə seçki komissiyasına məlumat verilin). Əks halda seçki qutusu/qutuları möhürlənərək komissiyanın sərəncamı ilə birlikdə dərhal Dairə Seçki Komissiyasına təhvil verilir

- Sayıcılara əsas seçki qutularından çıxarılan seçki bülletenləri qarışdırmaq və bülletenlərin çeşidlənməsi və sayılması prosesinə başlamağı tapşırın.

- Seçki bülletenlərini çeşidlədikdən sonra sayıcılara aşağıdakıları saymağı tapşırın: batil sayılan bülletenləri; Hər bir seçki subyekti üçün verilən səsləri.

- Hər bir seçki subyektinin aldığı səslərin və batil seçki bülletenləri sayını elan edin. Komissiyanın katibi ilə birlikdə məlumatların düzgünlüyünü yoxlayın.

  Əgər seçki subyektləri tərəfindən alınmış səslərin və batil seçki bülletenlərin cəmi səsvermədə iştirak edən seçicilərin sayından çox olarsa, məlumatların yenidən hesablanması üçün sayçılara göstəriş verin.

- Seçki bülletenləri hesablandıqdan sonra sayıcılara aşağıda göstərilənləri ayrı-ayrı paketlərə möhürləməyi tapşırın:

  - batil sayılmış seçki bülletenlərini;

  - başqa seçki məntəqəsi üçün nəzərdə tutulmuş batil seçki bülletenlərini (mövcud olduğu halda). Başqa seçki məntəqəsi üçün nəzərdə tutulmuş batil seçki bülletenlərinin sayı yalnız qeydlər kitabında qeyd olunur;

  - seçki subyektlərinə məxsus seçki bülletenlərinin dəstəsi.

- Möhürlənmiş paketləri sayıcılarla birlikdə imzalayın.

## 07
## SƏSVERMƏNİN NƏTİCƏLƏRİNİN YEKUN PROTOKOLU İLƏ BAĞLI NƏYİ NƏZƏRƏ ALMALIYIQ

Seçki məntəqəsində səsvermənin nəticələri Seçki Məcəlləsi ilə müəyyən edilmiş qaydada tərtib edilmiş məntəqə seçki komissiyasının səsvermənin nəticələrinin yekun protokolu ilə təsdiq edilir.

- ☐ Komissiyanın katibi sizinlə razılaşaraq səsvermənin nəticələrinin yekun protokolunu doldurur. Komissiyanın bütün üzvləri səsvermənin nəticələrinin yekun protokolunu imzalamağa və bununla da seçki məntəqəsində olduqlarını təsdiq etməyə borcludurlar. Məntəqə seçki komissiyası tərəfindən tərtib edilmiş səsvermənin nəticələrini yekunlaşdıran protokol, məntəqə seçki komissiyası üzvlərinin əksəriyyəti tərəfindən imzalandıqda hüquqi qüvvəyə malikdir.

  Səsvermənin nəticələrinin yekun protokolunun tərtibi ilə bağlı ətraflı tənzimləmə üçün məntəqə seçki komissiyası üzvlərinin dərslik təlimatının 60-63-cü səhifəsində "Səsvermənin nəticələrinin yekun protokolunun tərtibi" yarımbölməsinə baxın

- ☐ Səsvermənin nəticələrinin yekun protokolunun fotosurətini planşetdən istifadə edərək dərhal MSK-ya göndərin.

  Yekun protokolun fotosurəti ilə birlikdə, səsvermənin nəticələrinin yekun protokolunun düzəliş protokolunun, fərqli fikir sənədini, komissiya katibinin/komissiya üzvlərinin izahatlarının və daşınan seçki qutusunda olan bülletenləri əsas seçki qutusuna yerləşdirərkən komissiya tərəfindən tərtib edilmiş aktın surəti - belə sənədlər olduqda.- belə sənədlər olduqda, fotosurətini MSK-ya göndərin.

**Sxem N12 - -** yekun protokolun fotosurətinin MSK-ya göndərilməsi prosesinin mərhələlərinin təsviri




{I}

Açılan kontekst menyusuna basın.




{II}

Proqramın menyusunda “Protokol” düyməsini seçin.



{III}

Yekun protokolun növünü seçin - “Proporsional” düyməsini.






{IV}

Protokolun foto surətini çəkmək üçün fotoaparatı əks etdirən düyməni seçin.






{V}

Yekun protokol planşetin fotokamera obyektivində tam görünməlidir. “Çəkmək” düyməsini seçin.







{VI}

Yekun protokolun fotosurətini göndərmək üçün “Göndər” düyməsini seçin.

Əgər seçki məntəqəsində:

- ✓ Planşetdə texniki xəta aşkar edildikdə (məntəqə seçki komissiyasının səsvermə nəticələrinin yekun protokolunun göndərildiyi MSK-nın tətbiqində problem yaranıb) və xətanı düzəltmək mümkün olmadıqda, elektron idarəetmə sisteminə səsvermənin nəticələrinin yekun protokolunun yüklənməsini dairə seçki komissiyası ona, digər seçki sənədləri ilə birlikdə yekun protokolunu verdikdən sonra təmin edir
- ✓ Seçki məntəqəsində kəsilməz mobil rabitə və internet bağlantısı olmadıqda, bu halda səsvermənin nəticələrinin yekun protokolunun surəti səsvermə binasının xarici perimetrindən MSK-ya göndərilə bilər, yaxud elektron idarəetmə sisteminə səsvermənin nəticələrinin yekun protokolunun yüklənməsini dairə seçki komissiyası ona, digər seçki sənədləri ilə birlikdə yekun protokolunu verdikdən sonra təmin edir.
- ☐ Səsvermənin nəticələrinin yekun protokolunun təsdiq edilmiş fotosurətini səsvermə binasında ictimai məlumat üçün asın.
- ☐ Səsvermənin nəticələrinin yekun protokolunun və düzəliş protokolunun (əgər varsa) fotosurətləri verilərkən (tələb olunduqda) komissiyanın katibi ilə birlikdə imzalayın və komissiyanın xüsusi möhürü ilə təsdiq edin.

  Səsvermənin nəticələrinin yekun protokolu/dəyişiklik protokolu ilə bağlı komissiya üzvlərinin izahatları (əgər varsa) tələb edildikdən 2 gün müddətində dairə seçki komissiyası tərəfindən tələbat əsasında verilir.
- ☐ Bütün prosedurları yerinə yetirdikdən sonra komissiyanın katibi ilə birlikdə qeydiyyat jurnalını və qeydlər kitabını bağlayın, imzalarla və məntəqə seçki komissiyasının xüsusi möhürü ilə təsdiq edin
- ☐ Dairə seçki komissiyasına seçki sənədlərini, elektron aparatlarının və digər inventarı təhvil vermək üçün qeydlər kitabını və onunla birlikdə aşağıdakıları möhürləyin;
  - ☐ ərizələr/şikayətləri;
  - ☐ seçicilərin verifikasiya aparatlarından çap edilmiş ilkin hesabatlar və aparatdan çap edilmiş yekun hesabatları;
  - ☐ xüsusi elektron səs sayma aparatlarından çap edilmiş “sıfır çıxarış” və aparatdan çap edilmiş ilkin nəticələr haqqında konsolodasiya çıxarışı.
- ☐ Qeydlər kitabının möhürlənmiş paketini komissiyanın katibi ilə birlikdə imzalayın.
- ☐ Komissiyanın xüsusi möhürünü möhürləyin. Komissiyanın xüsusi möhürünün möhürlənmiş paketini komissiyanın bütün iştirak edən üzvü imzalayır.